E-1502

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər– N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz verən “International Road Federation” *(ünvan: Fifth Floor, Madison Place, 500 Montgomery Street Alexandria VA 22314 (US)*/ nümayəndəsi, patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz ərizəsi üzrə işə baxaraq müəyyən etdi:

18.01.2018-ci il tarixində iddiaçı “International Road Federation” məxsus “ ” əmtəə nişanının 41-ci sinifin xidmətləri üzrə 1296126 saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 20.02.2017 tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü və 15-ci maddələrində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, “International Road Federation” adına olan əmtəə nişanının № 1296126 saylı beynəlxalq qeydiyyatı 03.03.2016-cı il tarixində 16 və 41-ci sinif əmtəələri və xidmətləri üçün qeydiyyata alınması üçün iddia verilmişdir. Ekspertizası zamanı 20.02.2017-ci il tarixində 41-cı sinif xidmətləri – “*Təhsil nəşrləri, məhz yol təhlükəsizliyi, tikinti, idarəetmə və texniki xidmət sahəsində siniflərin, seminarların, emalatxanaların, dərs vəsaitlərinin və onlayn siniflərin təşkil edilməsi; yol təhlükəsizliyi, tikinti, idarəetmə və texniki xidmət sahəsində təhsil konfranslarının, görüşlərinin, simpoziumlarının, seminarlarının və dərs vəsaitlərinin təşkil edilməsi; təhsil xidmətləri, məhz yol təhlükəsizliyi, tikinti, idarəetmə və texniki xidmət sahəsində onlayn təhsil sərgilərinin, nümayişlərinin və interaktiv sərgilərinin keçirilməsi*” barəsində bildirilmiş nişanın qeydiyyatından imtina haqqında

qərar çıxarılmışdır. Ekspertizanın fikrinə görə iddia edilmiş nişan Azərbaycan Respublikasında daha əvvəl qeydə alınmış Sorokina Olga Borisovnanın */ünvan: Suite 20. 68/8 Bldg.1, Baumanovskaya küç., RU-105005 Moscow (RU)/* adına olan 979221 saylı beynəlxalq qeydiyyatlı “IRFE” əmtəə nişanı ilə qarışdırılacaq dərəcədə oxşar olmasına görə iddia edilmiş 41-cı sinif xidmətləri üçün qeydə alına bilməz. Qeydiyyat tarixi – 02.04.2008- ci il. Nişan 41-cı sinif əmtəələri barəsində qeydə alınmışdır – “*Təhsil; hazırlığın təmin edilməsi; əyləncə proqramları; idman və mədəni tədbirlər”.* Ekspertizanın qərarı iddiaçı tərəfindən 20.04.2017-ci il tarixində alınmış və iddiaçının tapşırığına əsasən 979221 saylı beynəlxalq qeydiyyatlı “IRFE” nişanının 41-ci sinif xidmətləri barəsində istifadə edilməsinin ləğv edilməsi üçün ərizə Apellyasiya şurasına göndərilmişdir. Apellyasiya şurası 979221 saylı beynəlxalq qeydiyyatlı “IRFE” nişanının 41-ci sinif xidmətləri barəsində ləğv edilməsi haqqında qərar çıxarmışdır. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanunun 15-ci maddəsini və Apellyasiya şurasının № E-1447 saylı 31.10.2017-ci il tarixli qərarını rəhbər tutaraq və yuxarıda şərh olunanları nəzərə alaraq iddia edilmiş nişan bütün 41-ci sinif xidmətləri üzrə 1296126 saylı beynəlxalq qeydiyyatlı “ ” əmtəə nişanının qeydə alınması Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib, hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, “International Road Federation” tərəfindən “ ” (1296126) adlı əmtəə nişanı 16 və 41-ci sinifin əmtəələri və xidmətləri üzrə 03.03.2016-cı il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 28.04.2016-cı il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2016/16 Gaz).

Ekspertiza “ ” (1296126) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan 02.04.2008-ci il tarixində 41-ci sinifin xidmətləri üzrə Sorokina Olga Borisovnanın *(ünvan: Suite 20. 68/8 Bldg.1, Baumanovskaya küç., RU-105005 Moscva (RU)* adına qeydiyyata alınmış “IRFE” (979221) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

Apellyasiya şurası qeyd etdi ki, 21.07.2017 il tarixdə, “IRFE” adlı əmtəə nişanının 41-ci sinifin xidmətləri dair 979221 saylı beynəlxalq qeydiyyatının Azərbaycan Respublikası üzrə vaxtından əvvəl xitam verilməsi üçün Apellyasiya şurasına patent müvəkkili T.A.Yaqubova tərəfindən etiraz ərizəsi daxil olmuşdur.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı, 28-ci və 30-cu maddələrinə əsasən, Sorokina Iga Borisovnaya məxsus olan “IRFE” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 41-ci sinifin xidmətləri üzrə Apellyasiya şurasının 31.10.2017 il tarixli E-1447 nömrəli qərarı ilə 979221 saylı beynəlxalq qeydiyyatına xitam verilmişdir.

“IRFE” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 41-ci sinifin xidmətləri üzrə 979221saylı qeydiyyatına xitam verilməsinə görə və həmin qərarın qüvvəyə minməsini nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, “ ” əmtəə nişanının qeydiyyatı (1296126) 41-ci sinifin xidmətlərinə dair Azərbaycan Respublikası üzrə bərpə edilə bilər.

“IRFE” adlı əmtəə nişanının 41-ci sinifin xidmətləri üzrə 979221 saylı beynəlxalq qeydiyyatının xitam edilməsini nəzərə alaraq və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini və 6-cı maddəsinin “b” rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “ ” əmtəə nişanının 41-ci sinifin xidmətləri üzrə 1296126 saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 20.02.2017 tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən verilmiş ərizə əsaslı hesab edilsin və təmin olunsun.

2 ” əmtəə nişanının 41-ci sinifin xidmətləri üzrə 1296126 saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 20.02.2017 tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. ” əmtəə nişanının 41-ci sinifin xidmətləri üzrə 1296126 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov